
Ə.Əliyev

# Məsuliyyət və yaradıcılıqla

Kəlbəcər Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Saday Musayev şəbəkəyə daxil olan qabaqcıl müəssisələrin fəaliyyətindən söhbət açmaq fikrimizi öyrənincə yerlərə baş çəkməyimizi məsləhət bildi: ***"Təvazökarlıqdan uzaq da olsa, deyim ki, bizdə fəaliyyətdə olan kollektivlərin hamısı qabaqcıl, işini sevən, vəzifəsinə məsuliyyətlə yanaşandır. Odur ki, mən onları bir-birindən fərqləndirmək istəmirəm. Yaxşısı budur ki, bir yerdə onlara baş çəkək, hər şeyi gözünüzlə görün, qeydlərinizi edin, sonra...***

***Sonra da lazım bildiyiniz müəssisə haqqında geniş məlumat verərsiniz..."***

Beləcə, müəssisələrdə olduq, onların son illər gördüyü işləri yoxladıq və bəri başdan deyim ki, fəaliyyətindən narazı qaldığımız kollektivə rast gəlmədik. Məlum oldu ki, şöbənin özündə birləşdirdiyi incəsənət məktəbi, kitabxana və mədəniyyət evinin qazandığı uğurların başlıca səbəbi təkcə burada çalışan əməkdaşların işlərinə məsuliy-


Filialın aşıqlar ansamblı



Z.Süleymanov



Muğam dərsində

yət və yaradıcılıqla yanaşması deyil, həm də bu kollektivlərin bir-biri ilə xoş ünsiyyət saxlamaları, fəaliyyətlərində daim zamanla səsləşən yeniliyə can atmalarıdır.

Belə müəssisələrdən biri də Kəlbəcər rayon uşaq incəsənət məktəbidir. Müsahibimiz həmin məktəbin direktoru Ədalət Əliyevdir.

-Məktəbimiz hazırda Gəncə şəhərinin Gülüstan qəsəbəsində yerləşən Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının yataqxanasında məskunlaşıb, elə burada da fəaliyyətini davam etdirir.

Burada 120 nəfər uşaq oxuyur. Onların tar, kamança, saz, səs, qarmon və rəssamlıq ixtisasları üzrə təhsilləri ilə 28 nəfər müəllim məşğul olur.

Məktəb 17 sinif otağından ibarətdir. Burada istilik sistemi quraşdırılmış, səliqə-səhman yaradılmışdır. "Heydər Əliyev" guşəsi, bəstəkarların portretləri, şərəf lövhəsi yalnız dəhliz və otaqların yaraşığını artırmır, həm də uşaqların ümummilli liderimiz, tanınmış bəstəkarlarımız və istedadlı şagirdlər haqqında məlumatlarının zənginləşməsinə xidmət edir.

Yeri düşmüşkən qeyd edim ki, məktəbimizin kifayət qədər istedadlı yetirmələri var. Onlardan Anar Əhmədov Ü.Hacıbəyov adına Ağdam musiqi texnikumuna qəbul olunmuşdur. Şagirdlərimiz Gəncə şəhərində keçirilən Respublika xor müsabiqəsində fəal iştirak etmişlər.

5-ci sinif şagirdi Eldəniz Nəcəfli və Sevinc Əhmədova Şəmkir rayonunda keçirilən Aşıq Şəmşir adına saz müsabiqəsində yüksək ifaları ilə fərqlənmiş, qaliblərdən olmuşlar.

Kəlbəcər

Ayrı-ayrı müsabiqələrdə həmçinin Samir Məmmədov, Firuzə Həsənli, Elçin Kərimov, Cuma Hüseynov, Nailə Alıyeva və başqaları da fərqlənmişlər.

Məktəbimizin məzunlarından Leyla Hümbətova, Elçin Kərimov, Hikmət Quliyev kollektivdə müəllim kimi fəaliyyətə başlamışlar.

Məktəbimizin bir filialı da Bakıda fəaliyyət göstərir. Burada 106 şagird oxuyur. Onların təlim-tərbiyəsi ilə 18 nəfər müəllim məşğul olur.

Məktəbə Ziyadxan Süleymanov rəhbərlik edir. Filialda da istedadlı uşaqlar çoxdur. Onlardan Nurlan Camalov, Vüqar Sərdaroğlu, Şəhriyar Həsənzadə və Aynurə Əliyeva həvəsləndirici mükafatlara layiq görülüblər. Məktəbin uğurları barədə mütəmadi oaraq AzTV, ANS, Space və İctimai televiziya kanallarında maraqlı verilişlər yayımlanır.

Yeni tədris ilində bizi daha böyük qayğılar gözləyir. Bu da Azərbaycan Respublikası Nazirlər Kabinetinin "2009-2013-cü illər üçün Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətininn yaxşılaşdırılması üzrə İnkşaf Proqramı"nın icrası ilə bağlıdır. Bu önəmli sənəddə irəli sürülən müddəalar diktə edir ki, fəaliyyətimizi zamanın tələbləri əsasında quraq, uşaqların təlim-tərbiyəsini yüksək səviyyədə tənzimləyək, onlara musiqi zövqü aşılamaq üçün müvafiq iş aparaq...

• A.QOCAYEVA